بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Cavad (ə)




**Kitabın adı: İmam Cavad (ə)**

**Tərcümə edən: Seyyid Zahir Cavadov**

**Çap tarixi: 2018**

**Çap növbəsi: Birinci**

**Tiraj: 1000**

**Издательство «Свет»**

**Типография «Махаон», 2018**

**ISBN 5-18-110518-3**



## Bərəkətli mövlud

Bütün ailə sevinc içərisində idi və hamı imam Rzanı (ə) və həyat yoldaşını təbrik edirdi. Allah onlara bərəkət dolu mehriban və nurlu sima – oğlan övladı bəxş etmişdi. İmam Rza (ə) onun adını Məhəmməd qoydu.
İmamın ailə üzvləri, eləcə də, tanıyanlar arasında Məhəmməd (ə) xüsusi xeyir-bərəkətilə seçilirmiş. O (ə), çox mehriban, səxavətli və kərəm sahibi idi. Ona görə də onu Cavad adlandırmışlar.
Əbu Yəhya Sənani deyir: "Bir gün imam Rzanın (ə) yanında idim. Bu vaxt o həzrətin azyaşlı oğlu Cavad (ə) bizim yanımıza gəldi. İmam Rza (ə) buyurdu ki, şiələrimiz üçün ondan xeyir-bərəkətli bir uşaq dünyaya gəlməyib."

## İmam Cavadın (ə) anası

İmam Cavadın (ə) anasının adı Xiyzəran idi. Onun Reyhanə, Səbikə və Mirrisiyyə kimi adları da olub.
Xiyzəran dövrünün ən üstün qadınlarından olub hətta Peyğəmbərdən (s) bu şücaətli və fəzilətli qadının və övladı imam Cavadın (ə) gələcəyi barədə belə bir nəql var: "Atam fəda olsun, Nəvbə əhlindən olan o pak təbiətli, ən yaxşı kənizin oğluna!"
Nəvbə məntəqəsi Misirin yaxınlığında Afrika qitəsinə düşür.
İmam Kazimin (ə) şagirdlərindən biri Yəzid ibn Suləyt Mədinə ilə Məkkə arasındakı yolda imam Kazimlə (ə) görüşü zamanı həzrətdən canişini barədə soruşdu. Həzrət bir az şərh verdikdən sonra buyurdu: "Məni bu il həbs edəcəklər. İmamət oğlum Əliyə (imam Rza) yetəcək."
Sonra buyurdu: "Sən də, o zaman oğluma müjdə ver ki, tezliklə sən də əmanətdar, etimadlı və mübarək oğul (imam Cavad) sahibi olacaq. O, sənə mənimlə burada görüşdüyümüzü xəbər verəcək. O zaman ona de ki, oğlunun (imam Cavad) anası Rəsulullahın (s) həyat yoldaşı və oğlu İbrahimin anası Mariya Qibtiyyənin nəslindən olan bir kənizdir. Əgər mümkün, olsa, mənim salamımı o kənizə (Xiyzəran) də çatdır."

Adı: Məhəmməd (ə)
Məşhur ləqəbləri: Cavad, Təqi
Künyəsi: Əbu Cəfər (sani)
Atası: Əli (ə)
Anası: Xiyzəran
Doğum tarixi: 195-ci hicri-qəməri ili, 10 rəcəb
Doğulduğu yer: Mədinə
İmamət müddəti: 17 il
Ömrü: 25 il
Şəhadət tarixi: 220-ci hicri-qəməri ili, zilqədə ayının axırı
Qatilinin adı: Ümmül-Fəzl (onu zəhərləmişdir)
Dəfn yeri: Kazimeyn (İraq)

## Azyaşlı imam

İmam Cavad (ə) uşaq yaşlarında imamət məqamına yetişmiş ilk imam olduğundan bəziləri belə sual edirlər ki, yeniyetmə bir uşaq müsəlmanların rəhbərlik və imamət məsuliyyətini necə öz öhdəsinə götürə bilər?
Bu sualın cavabı belədir:
İnsanın həyatda ağıl və cismi cəhətdən müəyyn inkişaf və çiçəklənmə dövrü var və insan həmin vaxta yetdikdə, nisbi kamillik həddinə yetir. Bununla belə, əsas məsələ mehriban Allah tərəfindən hər bir şeyin xilqəti və onun vücuda gəlməyi prosesidir. Bu bizə anlaşılmaz olsa da, yenilməz qüdrət sahibi üçün çox asandır. O, biz insanların xeyir və şərini daha yaxşı bilir. Ona görə də bəzi hallarda xüsusi bəndələri üçün bu prosesi qısaldır və onun kamillik dövrünü tezləşdirir. Hər halda bu məsələni olduğu kimi qavramaq çətindir.
Bəşərin tarixində lap qədim dövrlərdən Allah-taalanın xüsusi lütf və mərhəməti sayəsində kiçik yaşlarından imamət və xalqa rəhbərlik məqamına yüksələn şəxslər olub. Mövzunun daha da aydınlığı üçün aşağıda neçə nümunəyə toxunuruq:



1. Həzrət Yəhya (ə) uşaq yaşlarında peyğəmbərliyə seçildi. Qurani-kərim bu barədə buyurur: "Biz uşaq ikən ona hikmət (peyğəmbərlik) verdik."
2. Uşağın dil açıb, danışması üçün təxminən on iki ay (bir il) vaxt keçməlidir. Ancaq həzrət İsa (ə) dünyaya gəldiyi ilk günlərdə dil açdı və çox açıq-aydın danışaraq ciddi töhmətlərə məruz qalan anasını müdafiə edib, inadkarların dedi-qodusuna məntiqlə cavab verdi. Halbuki, belə danışıq tərzi, belə bir məfhuma malik söz demək yalnız yuxarı yaşlı şüur sahiblərinə xasdır.
Bu məsələ Quranda belə açıqlanır: "(Allahdan bir möcüzə olaraq) dilə gəlib, dedi: "Mən, həqiqətən, Allahın quluyam (bəndəsiyəm). O, mənə kitab (İncil) verdi, özümü də peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca namaz qılıb, zəkat verməyi tövsiyə buyurdu. O, həmçinin məni anama qarşı olduqca itaətkar və nəvazişkar etdi, (heç kəsə qarşı) zülmkar, asi (dikbaş) eləmədi."
Qeyd olunanlar göstərir ki, Allah qüdrətilə həzrət İsanı (ə) uşaq ikən danışdırmış, ona və həzrət Yəhyaya (ə) uşaqlıq çağlarında peyğəmbərlik vermişdir. Deməli, məsum imamların (ə) da Allahın qüdrətilə uşaq vaxtlarında imamət məqamına çatmalarının heç bir iradı yoxdur və mümkün olan bir hadisədir.

## İmamət silsiləsinin xüsusiyyətləri



1. Əli ibn Əsbat deyir: “Bir gün imam Cavadın (ə) hüzuruna getdim. Görüş zamanı o həzrətin nurani simasına diqqətlə baxaraq cizgilərini yadımda saxlamaq istəyirdim ki, Misirə getdikdən sonra tərəfdarlarına həzrətin əlamətlərini təsvir edə bilim. Elə bu vaxt imam Cavad (ə) bütün fikirlərimi oxumuş kimi mənimlə üz-üzə əyləşib, buyurdu: “Ey Əli ibn Əsbat! Allah-taalanın imamət məsələsində gördüyü iş eynilə peyğəmbərlik məsələsində gördüyü iş kimidir. Allah-təala həzrət Yəhya (ə) barədə buyurur: “Biz uşaq ikən ona hikmət (peyğəmbərlik) verdik.” Həzrət Yusif (ə) barədə buyurur: “Yusif (gəncliyinin) ən yetkin dövrünə çatdıqda, ona hikmət (peyğəmbərlik) və elm verdik. Həzrət Musa (ə) barədə buyurur: “(Musa) yetkinləşib, kamilləşəndə ona hikmət və elm verdik.”

Deməli, mütəal Allah elm və hikməti bir şəxsə qırx yaşında verdiyi kimi onu uşaqlıq vaxtlarında da verə bilər.

2. İmam Rza (ə) Müəmmər ibn Xəllad adlı səhabəsinə buyurur: “Mən Cavadı öz yerimdə əyləşdirib, onu öz canişinim təyin etmişəm. Biz elə bir nəsildənik ki, kiçiklərimiz hər şeyi böyüklərimizdən irs alır.”

3. İmam Rzanın (ə) səhabələrindən biri deyir: “Bir dəfə Xorasanda imam Rzanın (ə) hüzurunda idik. Orada olanlardan biri imama dedi ki, ey mənim ağam, Allah eləməsin, birdən sizin başınıza bir iş gəlsə, biz sizdən sonra kimə müraciət edək? Həzrət buyurdu: “Oğlum Cavada.” Bunu deyəndə həmin şəxs imam Cavadın yaşının az olduğunu bildirdi və imamın tapşırığından bir az təəccübləndikdə, həzrət (ə) buyurdu: “Allah-taala İsa ibn Məryəmi (ə) Əbu Cəfərdən (imam Cavad) da kiçik yaşlarında peyğəmbər və yeni şəriət sahibi etmişdir.”



## Kor kişinin şəfa tapması

Gözləri zəifləmiş və yaxşı görə bilməyən bir nəfər deyir: İmam Rza (ə) Xorasana getməmişdən öncə Məkkədə onu gördüm. Həzrətdən xahiş edib, dedim: Ey Peyğəmbərin övladı! Mən Mədinəyə gedirəm, mənim barəmdə bir məktub oğlun Məhəmməd Təqiyə (ə) yaz ki, onun inayət və lütfündən faydalanım.



İmam bir məktub yazıb, mənə verdi. Məktubu alıb, Mədinəyə tərəf yola düşdüm. O zaman artıq mənim iki gözüm də kor idi. Mədinəyə çatdıqdan sonra imam Cavadın (ə) evinə getdim. Həzrətin xadimi Müvəffəq onu mənim yanıma gətirdi. O hələ beşikdə südəmər bir uşaq idi. Məktubu Müvəffəqə verdim. Həzrət öz xadiminə məktubu açmasını əmr etdi. Xadim məktubu açaraq həzrət Cavadın (ə) gözləri önünə tutdu. Həzrət ona bir nəzər saldıqdan sonra mənə tərəf üz tutub buyurdu: Ey Məhəmməd gözün necədir?

Mən dedim: Ey Rəsulullahın nəvəsi! Gözlərimdə ağrı var, artıq görmür. Elə belə gördüyünüz kimidir.

Həzrət yaxınlaşmağımı istədi. Sonra əlini gözlərimə çəkərkən öz ilk halına qayıtdı.

Nəhayət, əl-ayağından öpüb, geri qayıtdım. Gözlərim hələ də görür.

## Sevimli uşaq

İmam Cavad (ə) elə uşaq yaşlarından hamının məhəbbətini qazanmışdı. Camaat onu görmək üçün dəqiqələri sayırdılar və o həzrəti çox sevirdilər. Əvvəllər şiə məzhəbinin ardıcıllarından olmayan Qasim ibn Abdullah deyir: Bağdada getmişdim. Bir gün bir tərəfə çəkilib, kənarda dayanmışdım. Birdən çoxlu adam sıraya düzüldü. Hamı hərəkətə gəldi. Nə baş verdiyini soruşdum. Dedilər ki, imam Rzanın (ə) oğlu Cavad (ə) buradan gəlib keçəcək.



Öz-özümə dedim ki, and olsun Allaha, heç yerə getməyəcəyəm və burada dayanıb, onu görəcəyəm. Çox çəkmədi ki, gördüm, at belində oturub, oradan keçir. Ürəyimdə şiələri qınayıb, dedim: Sən Allah, bu şiələr belə güman edirlər ki, Allah balaca uşağa itaət etməyi vacib sanıb!
Birdən o həzrət mənim ürəyimi oxuyub, buyurdu: "Ey Qasim ibn Abdullah! Səmud qövmü peyğəmbərləri (Saleh) qarşısında dayanıb, dedilər: "Məgər biz özümüzdən olan (adi) bir adamamı tabe olacağıq?! Onda haqq yoldan azmış və dəlilik etmiş olarıq!"

Qasim deyir: Yenə özlüyümdə dedim ki, and olsun Allaha, bu şəxs (imam Cavad) sehrkardır. Elə bu an həzrət yenə üzünü mənə tutub, buyurdu: "Səmud qövmü öz peyğəmbərinə dedilər: Məgər içərimizdən vəhy yalnız onamı nazil olmuşdur?!"
İmam Cavad (ə) bu sözü ilə ona başa saldı ki, ilahi elçilərin zamanında da bəzi müşriklər və aldanmış insanlar belə sözlər danışsalar da, hamısı səhv edirdi.
Qasim deyir: Bu vaxt iman və vilayət nuru qəlbimə saçdı və zeydi məzhəbindən çıxaraq doğru imamların məqamına və imam Cavada etiqad bəslədim. Odur ki, imamın xalq arasında Allah tərəfindən haqq höccət olduğuna şəhadət verdim.



**Sual-cavab məclisləri**

İmam Cavadın (ə) dövründə sual-cavab və elmi müzakirə məclislərinin təşkil edilməsinin əsas səbəblərindən biri o həzrətin yaşının az olmasına baxmayaraq imam təyin edilməyi bir çox şiələr üçün hələ də qaranlıq qalması idi (bubunla belə, şiələrin alim və şəxsiyyətlərinin şiənin əqidələrinə dair bu barədə heç bir şəkk-şübhəsi yox idi). Odur ki, hamı əmin olmaq məqsədilə o həzrətə çoxlu suallar verirdilər.



Digər tərəfdən, imam Cavadın (ə) yaşadığı dövr mötəzilə təriqətinin geniş yayılıb, nüfuz qazandığı bir dövr olmuşdur. Yerli hökumət də, onları himayə edərək bu məzhəbin əqidələrini möhkəmləndirir, digər təriqət və cərıyanları nüfuzdan salmaq üçün əlindən gələn maddi və mənəvi imkanları əsirgəmirdi.

Bununla belə, mübahisə meydanlarında imam Cavad (ə) qəti və açıq-aydın cavabları ilə özünün imam məqamı məsələsi üzərindən bütün şəkk-şübhələri qaldırır, özünün bu məqama sahib olduğunu isbat edirdi.

Bundan sonra daha imam Hadinin (ə) imaməti dövründə də artıq o həzrətin kiçik yaşlarında ikən imamət məqamına yetməsi məsələsi heç də şübhə doğurmurdu. Çünki artıq hamıya bəlli idi ki, yaşın az olması Allah tərəfindən verilən məqamla heç bir ziddiyyət təşkil etmir.

## İmam Cavad (ə) anasından danışır

Zəkəriyya ibn Adəm deyir: İmam Rzanın (ə) hüzurunda idim. Birdən hələ dörd yaşı olmayan həzrət Cavadı (ə) gətirdilər. Bu nurani uşaq bir küncdə əyləşib, əllərini yerə qoydu və başını səmaya tərəf qaldırıb, bir müddət fikrə gedərək bu halda qaldı. İmam Rza (ə) ona buyurdu: "Canım sənə qurban! Niyə fikirləşməyin bu qədər uzun çəkdi?" İmam Cavad (ə) buyurdu: "Anam Fatiməyə (ə) edilən zülmlər haqda fikirləşirəm..."

İmam Rza (ə) ona yaxınlaşaraq iki gözünün arasından öpüb, buyurdu: "Atam-anam sənə fəda olsun! Doğrudan da sən imamət məqamına layiqsən!"



## Atasının tapşırığına diqqət

İmam Rzanın (ə) tanınmış səhabələrindən biri deyir: İmam Rza (ə) oğlu Cavada (ə) məktub yazıb, mənim vasitəmlə göndərdi. Məktubu gətirib, imam Cavada (ə) verdim. Həzrət məktubu oxumağımı istədi. Məktubda belə yazılmışdı:



"Ey Əbu Cəfər! Atla bir yerə getmək istədikdə xidmətçilərin səni kiçik qapıdan gizli surətdə bayıra çıxarır. Bu, onların bəzilərinin paxıllığı və həsədi üzündəndir. Onlar sənin ehtiyaclılara fayda verməyini istəmirlər. Səni üzərində olan haqqıma and verirəm, həmişə böyük qapıdan get-gəl et! Atına mindikdə, özünlə qızıl və gümüş pul götür ki, səndən yardım istəyən ehtiyaclılara verə biləsən."

**Əsanın danışması**

Samirra şəhərinin qazisi Yəhya ibn Əksəm deyir: Bir gün Məscidün-nəbiyə gedib, ziyarət edirdim. Elə bu vaxt Peyğəmbərin (s) məzarını ziyarət edən Məhəmməd ibn Əlini (ə) (imam Cavad) gördüm. Ona bir neçə sual verərək söhbət etdim. O da suallara cavab verdi. Sonra ona dedim: Sənə bir sual vermək istəyirəm, ancaq çox utanıram. İmam "Sual etməmişdən qabaq sənin cavabını verirəm. Sənin sualın budur ki, zəmanənin imamı kimdir." – buyurdu.

Dedim: And olsun Allaha! Elə mənim sualım bu idi.

Həzrət buyurdu: "Zəmanənin imamı mənəm."

Mən dedim: Sizin sözünüzün doğruluğunun əlaməti nədir?

İmamın əlində bir əsa var idi. Allahın izni ilə dilə gəlib, acıq-aydın dedi: "Həqiqətən, o mənim mövlam, bu zamanın imamı və Allahın höccətidir."



## Əbu Səltin zindandan azad olması



Əbu Səlt imam Rzanın (ə) vəfalı səhabələrindən idi. O, imam Rzanın (ə) vəsiyyətinə uyğun olaraq həzrətin dəfnindən sonra bir sıra dua və zikrlər oxudu. Birdən imamın qəbrində su zahir oldu və daxilində kiçik balıqlar göründü. Daha sonra bir böyük balıq peyda olaraq bütün kiçik balıqları yedi və özü də gözdən itdi. Əbu Səlt yenidən dua və zikrləri oxudu. Bu dəfə su qəbirdən tamamilə çəkildi.

Məmun və vəziri də bu hadisəni öz gözləri ilə müşahidə edirdilər. Vəzir Məmuna dedi: Bu hadisənin yozumu odur ki, sənin ömrün həmin kiçik balıqlar kimi qısadır və tezliklə böyük balıq səni həlak edəcək.

Dəfn mərasimindən sonra qorxuya düşən Məmun Əbu Səltə dedi:

Oxuduğun o dua və zikrlər nə idi? Onları mənə də öyrət.

Əbu Səlt dedi: And olsun Allaha, onların hamısını elə həmin vaxt unutdum.

Məmun çox narahat oldu və qəzəblənərək Əbu Səltin zindana salınmasını əmr etdi.

Əbu Səlt deyir: Bir il idi ki, Xorasanda zindanda idim. Bir gün ürəyim yaman darıxdı. Gecəni narahatlıqdan yata bilmədim və səhərə kimi ibadətlə məşğul oldum. Allaha Məhəmməd (s) və onun Əhli-beytinə (ə) and verdim ki, məni zindandan xilas etsin. Duam hələ bitməmiş, birdən imam Cavad (ə) zindana gəldi və mənə belə buyurdu:



"Ey Əbu Səlt! Darıxmısan?" Dedim: Bəli! Bu vaxt imam (ə) mübarək əlini mənim əllərim və ayaqlarıma bağlanan zəncirlərə çəkdi. Zəncirlər açılıb, yerə töküldü və həzrət əlimdən tutaraq məni gözətçinin gözü önündə bayıra çıxardı. Gözətçi, sanki donmuş kimi, mənə bir söz deməyə, yaxud zindandan çölə çıxmağımın qarşısını almağa qadir deyildi.

Beləliklə, qeyri-adi gəlişilə zindandan xilas oldum.

## Kəskin cavablar



Məmun xilafətin paytaxtını Tus şəhərindən Bağdada köçürdükdən sonra imam Cavada (ə) məktub yazıb, həzrəti ora dəvət etdi. Bu dəvət də, imam Rzanın (ə) Tus şəhərinə dəvəti kimi zahirdə təklif, həqiqətdə məcburi dəvət idi. İmam (ə) onun dəvətini qəbul edib, Bağdada getdi.
Bir neçə gündən sonra Məmun onu öz sarayına ziyafətə çağıraraq xalqda müsbət fikir yaratmaq üçün bir hiylə ilə qızı Ümmül-Fəzli onunla (ə) evləndirmək təklifini irəli sürdü. İmam (ə) Məmunun təklifi qarşısında sükut etdi və o da sükutu razılıq əlaməti sayıb, tədarükə başladı. O, bu münasibətlə təntənəli məclis qurmaq fikrində idi. Amma bu xəbər Bəni Abbas arasında böyük narazılığa səbəb oldu. Bəni Abbas sülaləsinin nümayəndələri bir yerə toplaşaraq Məmuna sərt etirazla dedilər: Axı, bu nə işdir görürsən?! Əli ibn Musanın (ə) vəfatından sonra hakimiyyətin Bəni Abbasın əlində olduğu halda onu doğrudanmı ikiəlli Əli övladlarına vermək istəyirsən? Biz bu işə razı ola bilmərik. Məmun soruşdu: Bəs, sizin fikriniz nədir?
Onlar dedilər: O, hələ uşaqdır, elm-bilikdən elə də faydalanmayıb. Məmun dedi: Siz bu sülaləni yaxşı tanımırsınız. Onların kiçiyi də, böyüyü də tükənməz elm sahibidir. Əgər inanmırsınızsa, onda özünüz onu yoxlayın. İstədiyiniz hər hansı alimi çağırıb, onunla mübahisə təşkil edin, onda sözümə inanarsınız.
Yəhya ibn Əksəm Məmunun dövründə adlı-sanlı alimlərdən idi və bir çox elmlərdə şöhrət qazanmışdı. Onun Məmunun yanında da böyük hörməti var idi və xəlifənin yaxın adamlarIndan sayılırdı, hətta ölkənin bir sıra işlərini ona tapşırmışdı. Yəhya isə böyük elmi məqamına baxmayaraq elə də imanlı insan deyildi və bunu şöhrət qazanmaq üçün bir vasitə bilirdi.



Adətən, o, alimlərlə mübahisələrində müxtəlif elmi sahələrə dair o qədər suallar verirdi ki, nəhayət, qarşısındakı şəxs aciz qaldığını etiraf edirdi.
Bu minvalla Abbasilər alimlərin arasından Yəhya ibn Əksəmi seçdilər. Məmun imam Cavadın (ə) elmi səviyyəsini yoxlamaq üçün məclis təşkil etdi. Məclisdə Yəhya imama sual verərək dedi: Həcc mövsümündə ehram bağlayıb, heyvan ovlamış şəxsin hökmü nədir?
İmam Cavad (ə) buyurdu: “O şəxs heyvanı hərəmdən kənarda, yoxsa hərəmin daxilində ovlayıb? Ehramda ikən heyvan ovlamağın haram olduğunu bilirdi, ya yox? Onu qəsdən ovlayıb, yoxsa bilmədən? Özü azad insan idi,



yoxsa qul? Uşaq idi, yoxsa böyük? Birinci dəfədir belə bir iş görür, yoxsa bir neçə dəfə belə iş görüb? Ovladığı heyvan quşlar cinsinə aiddir, yoxsa quş deyil? Böyük heyvan olub, yoxsa kiçik? Gördüyü bu işdən peşman olub, yoxsa yox? Heyvanı gecə ovlayıb, yoxsa gündüz? Bağladığı ehram ümrə həccinin olub, yoxsa təməttö həccinin?"

Bu məsələ ilə əlaqədar imamın (ə) qeyd etdiyi müxtəlif hallara heyran qalan Yəhya özünü irirərək dili topuq vurmağa başladı. O, daha xəcalətindən başını aşağı saldı və bütün məclisdəkilər onun imam Cavadın (ə) qarşısında aciz olduğunu aşkar hiss etdilər. Sonra imam özü bu halların



hər birinin hökmünü izah etdi. Nəhaəyt, imam (ə) ondan bir sual soruşdu və Yəhya o suala da cavab verə bilmədi. Həzrət onun da cavabını söylədi.

Beləliklə, hamı imamın elmi qarşısında təzim etdi. Bu vaxt Məmun dedi: Şükür olsun Allaha, mən fikirləşdiyim kimi çıxdı! Sonra üzünü sülaləsinə tutub, dedi: Qəbul etmədiyiniz həqiqəti indi anlayın!

## İmam Cavadın (ə) şəhadəti

Məmun öləndən sonra onun qardaşı Mötəsim xəlifə oldu. O, imam Cavadı (ə) nəzarətdə saxlamaq üçün Mədinədən Bağdada gətizdirdi. İmamı (ə) qarşısında mane hesab edən, qəlbində o həzrətə düşmən gözü ilə baxan Mötəsim, nəhayət, sui-qəsd fikrinə düşdü və öz çirkin niyyətiniqardaşı qızı Ümmül-Fəzlin vasitəsilə həyata keçirməyi qərara aldı. Beləliklə, zəhərlənmiş üzümlə imamı (ə) zəhərlədi. İmam üzümü yeyəndən sonra çox keçmədi ki, zəhər ciyərlərinə təsir etdi və yavaş-yavaş ağrısı şiddətləndi. İmam şiddətli ağrılar içərisində Ümmül-Fəzlə buyurdu:

"And olsun Allaha, bu xəyanətə görə əlacsız yoxsulluğa, gizli qalmayan bəlaya mübtəla olacaq- san!"

Elə də oldu və onun bədənində elə bir xəstəlik peyda oldu ki, bütün malını onun müalicəsinə sərf etsə də, şəfa tapmadı və nəhayət, çox acınacaqlı vəziyyətdə dünyasını dəyişdi.

İmam Cavad (ə) 25 yaşında şəhadətə yetdi və o həzrət zalım və fasiq xəlifələr tərəfindən şəhid edilən ən gənc imam idi.



## O həzrətin kəlamlarından:

“Şükrü yerinə yetirilməyən bir nemət bağışlanmayan günah kimidir.”

“Allahdan qeyrisinə ümidvar olanı Allah elə onun ümidinə buraxar.”

“Möminin izzəti xalqa möhtac olmamasındadır.”



# İmam Cavad (ə)

